2019-cu ilin yanvar-aprel aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 117689,7 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 98313,4 min ABŞ dollarını, yaxud 83,5 faizini ixrac, 19376,3 min ABŞ dollarını, yaxud 16,5 faizini idxal təşkil etmişdir.

İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 98 milyon 313 min 400 ABŞ dollar təşkil etmiş, 78 milyon 937 min 100 Amerika Birləşmiş Ştatları dolları dəyərində müsbət saldo yaranmışdır.